Ədəbiyyat Qəzeti

# Anlada bilmərəm itirdiklərimi...

*Əziz oxucular, "Söz körpüsü" adlı yeni layihə ilə görüşünüzə gəlirik. Bu silsilədə Türkiyənin müxtəlif şəhərlərində yaşayan şairlərin həyat və yaradıcılığı ilə sizi tanış edəcək, onların fəaliyyətinə işıq salmağa çalışacağıq. İnanırıq ki, bu Böyük Türk ədəbiyyatının bugünkü qol-budaqları arasında körpü yaratmaq cəhdi olaraq sizin tərəfinizdən də yaxşı qarşılanacaqdır. İlk qonağımız "Mərsin Ədəbiyyat Qrupu"nun sədri, şair Mustafa Doğandır. Sizə onunla müsahibəni və Mustafa bəyin şeirlərindən bir neçə nümunə təqdim edirik.*



**- Mustafa bəy, özünüzü Azərbaycan oxucularına necə tanıdardınız?**

- 1972-ci il doğumluyam. Mərsində yaşayıram, iki şeir kitabı, iki dram əsəri, on radio üçün dram müəllifiyəm. Radioda illərlə poeziya verilişi aparmışam, özəl şirkətdə çalışıram. Otuza qədər şeirim bəstələnib, şeir yarışmalarında çoxlu mükafatlara layiq görülmüşəm. "Mərsin Şairlər və Yazarlar Qrupu"nun başqanıyam.

**- Şeiri sevməyə şeir yazmaqdanmı yoxsa oxumaqdanmı başladınız?**

- Uşaqlıq illərimdə dinlədiyim mahnıların sözlərinə etiraz edərdim, onların daha gözəl variantını düşünürdüm, sonradan şeir yazmağa başladımsa da, müəyyən səbəblərdən onları aşkara çıxarmadım. Amma durmadan sevdiyim şairlərin şeirlərini oxudum, yazmağa davam etdim və otuz yaşlarında şeirlərimi yayımlamağa başladım.

**- "Mərsin Ədəbiyyat qrupu" olaraq hansı tədbirləri həyata keçirirsiniz?**

- Biz hər həftə dərnəkdə şeir dinlətisi keçiririk, "Maki" adlı dərgi çıxarırıq, məktəblərdə görüşlər keçirir, antologiyalar çap edirik və s. Bundan başqa vaxtaşırı bəzi klassiklərimizi anma günləri də olur.

**- Türk poeziyasından ən çox hansı şairləri sevirsiniz?**

- Yunis Əmrə, Aşık Veysəl, Karacaoğlan, Nazım Hikmət, Atilla İlhan, Cemal Safi, Cemal Süreyya və s.

**- Bəs çağdaş poeziyanın nümayəndələrindən?**

- Bahəddin Karakoç, Nurullah Gənç, Küçük İskəndər.

**- Azərbaycan şairlərindən kimi tanıyırsınız?**

- Azərbaycandan çox şair tanımaq fürsətim olmadı, burda daha çox Bəxtiyar Vahabzadənin şeirləri yayılıb deyə onun şeirlərini oxumuşam və sevmişəm. Sizin mahnılarınızı çox sevirəm, məsələn. Onların sözlərindən poeziyanızın gücünü anlayıram. Zatən, türk ədəbiyyatı bölünməzdir. İnşallah, zamanla daha çox müasir Azərbaycan şairi tanıyacağıma ümidliyəm.

**- Şeirin bugünkü durumundan razısınızmı? Gənclər şeir oxuyurmu? Sizcə, poeziyanın taleyi necə olacaq?**

- Şeir müasir dövrdə haqq etdiyi dəyəri görmür, burda təkcə gənclər deyil, yetişkinlər də səbəbkardı. İndi şeir oxucusundan çox şair var. Hər kəs öz səltənətində özünü şair elan edib. Sosial şəbəkələr hər kəsə ölçüsüz, meyarsız bir meydan açıb. Amma ümid edirəm ki, bu problemlər zamanla aradan qalxacaq və sosial media zamanla əsl ədəbiyyata xidmət edəcəkdir.

*Söhbətləşdi:*
***Səhər ƏHMƏD***